BUILDING TRUST

MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# SikaPaver®-193

Beton Su Keçirməzlik Əlavəsi və Qoruyucu Maye

## TƏSVİR

SikaPaver®-193, yüksək nüfuz etmə xüsusiyyəti ilə beton, hörgü daşı və hopdurucu mineral səthlərə tətbiq edilməklə qoruyuculuğu təmin edən və tökmə betonlar üçün yüksək performanslı su kecirməzlik əlavəsi kimi istifadə edilən aşağı özlülüklü emulsiyadır. Quruduqdan sonra görünüş və teksturaya minimum təsir göstərən suya davamlı səth təmin edir.

## İSTİFADƏ YERLƏRİ

Səth qoruyucu kimi:
- Dekorativ daş və betonlarda
- Beton yollar və həyətlərdə
- Verandalar və piyada yolları
- Hörgü daşları və kərpiclər
- Beton divarlar

Beton əlavəsi kimi :
- Tökmə daş istehsalında
- Beton hörgü daşları, beton bloklar, səki daşları
- Yaş və quru prekast istehsalında.

## ÜSTÜNLÜKLƏRİ

- Şaxtaya davamlılıq təmin edir
- Yosunlaşma və küflənməyə maneə yaradır
- Orijinal görünüşü dəyişmir
- Duzlaşma və ləkənməni azaldır, dayandırır
- Azaldılmış su keçiriciliyi
- Rəng görünüşünü qoruyur
- Aşağı qoxu, aşağı toksiklik formulalıdır

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

AZS Uyğunluq Sertifikatı

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Aşağı özlülüklü emulsiya |
| **Qablaşdırma** | IBC -1000kg, Tökmə - Yük tankeri |
| **Görünüş və rəng** | Maye, bəyaz rəngli |
| **Saxlama Müddəti** | Doğru saxlama şərtlərində istehsal tarixindən etibarən 12 ay. |
| **Saxlama Şərtləri** | Orijinal qablaşdırmada, +5 °C və +35 °C temperaturda, sərin və quru şəraitdə düzgün anbarlama şərtlərində saxlayın. Qablaşdırma üzərindəki məlumata diqqət yetirin. Birbaşa günəş şüalarından və şaxtadan qoruyun. |
| **Sıxlığı** | 0.95 -1.05 kg/l, 20 °C-də |
| **Tövsiyyə olunan doza** | Qarışım əlavəsi olaraq istifadə nisbəti; qarışım dizyanından, bağlayıcı və komponentlərin növündən və tələb olunan su izolyasiya dərəcəsindən asılı olacaq.<br>Təqribi olaraq tövsiyə olunan qarışdırma nisbəti:<br>▪ Həcmi ilə - 100Kq sementə (bağlayıcı) 0,50 - 2,02 litr.<br>▪ Ağırlıqca - 100 Kq sementə (bağlayıcı) 0,50 - 2,00 kq. |
| **Sərfiyyat** | Qoruyucu maye olaraq istifadə miqdarı; səthin teksturasından, |

məsaməliliyindən və tətbiq üsulundan asılıdır. Yüksək teksturalı və məsaməli səthlərdə ikidən çox qat tələb oluna bilər.
Püskürdmə üsulu ilə tətbiq olunduqda, beton daşlar və səkilərdə 1 litr ilə ~3.5m² sahə əhatə olunur. Adətən iki qat tətbiq olunur.

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Mümkün ayrılmanın qarşısını almaq üçün istifadə etməzdən əvvəl qarışdırın.
- Qarışım suyu ilə birlikdə sement qarışığına əlavə edin. Qarışım suyunun müəyyən qədər azaldılmasına ehtiyac ola bilər.
- SikaPaver®-193, quruma və bərkimə müddətinə təsir etmir.
- Su keçirməzliyin tam əldə olunması üçün bütün tökmə beton məmulatları tökmədən sonra 24-36 saat ərzində yağışdan qorunmalıdır.
- SikaPaver®-193 tərkibli məhsullar yüksək temperaturda və/yaxud rütubətdə (buxarda deyil) bərkiməsi təmin edilə bilər.
- Beton məmulatlar suda kürlənmə edilməməlidir.
- Maye məhsulun canlı bitkilər və ya su canlıları ilə təmasından çəkinin; məhsul aşağı toksikliyə malikdir, lakin canlı bitkilərin və balıqlar da daxil olmaqla su canlılarının tənəffüsünə mənfi təsir göstərə bilər.
- +5°C-dən aşağı temperaturlarda istifadə etməyin.
- Şüşə, alüminiyum və ya şüşəli səthlərlə təmasın qarşısını alın, çünki bu, matlaşmaya səbəb ola bilər. Yalnız yeni və ya təzə hazırlanmış səthlərdə istifadə edin, bu məhsul hər hansı yağ izləri, ləkələri, yosunlaşma və ya duzlaşma olan səthə tətbiq olunarsa qalıcı ləkə və fərqlənən görünüşü saxlayacaqdır.
- SikaPaver®-193, səthin sürüşmə müqavimətini azaltmır. Təmizlənmiş səthin məsaməliliyini əhəmiyyətli dərəcədə azaldır, bu səbəbdən üfüqi sahədə su gölməçələnməsinin qarşısını almaq üçün adekvat drenajın quraşdırılması vacibdir.
- SikaPaver®-193 ilə işlənmiş səthlər əvvəlcədən aşındırıcı təmizlənmə olmadan başqa bir örtüklə örtülməməlidir.

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## TƏTBİQ TƏLİMATLARI

### SƏTHİN KEYFİYYƏTİ/ÖN HAZIRLIQ

Bu məhsul üçün ideal olan yeni səthlərə tətbiq edilməlidir. Gölməçələnmiş su olmayan təzə yaş və ya yarı quru beton səthlərə tətbiq oluna bilər.
Köhnə beton səthlərdə təmiz təzə səth təmin etmək üçün aşındırıcı və mexaniki hazırlma üsullarından istifadə edilməlidir. Hər hansı çirkləndiricilər, yağ və ya hopduruculuq azaldıcı təbəqələr səthdən çıxarılmalıdır. Səth, vakuumlanaraq bütün toz və boş dənəciklərdən arındırılmalıdır. Əgər səth təzyiqli su ilə yuyularaq hazırlanıbsa, tətbiq etməzdən əvvəl səthin quruması təmin edilməlidir.

### TƏTBİQ

İstifadədən əvvəl qarışdırın. SikaPaver®-193, iki qatda birbaşa səthə çəkin. Birinci qat səthi quruduqdan sonra ikinci qat tətbiq edilməlidir. Bütün qatlar bir gündə tətbiq olunmalıdır. Tətbiq olunan səthi 24-36 saat ərzində çirklənmədən, nəqliyyatdan və ya yağışdan qorunmalıdır. Tətbiq fırça, rulon, püskürtmə, aşırı tökmə və ya daldıraraq ilə ola bilər.

### TƏMİR

SikaPaver®-193 işlənmiş səthlərin korlanmasını və ləkələnməsini əhəmiyyətli dərəcədə azaldır. Bununla belə, ağır piyada trafiki olan ərazilərdə optimal performansı təmin etmək üçün müntəzəm təmizlik vacibdir. Elektrikli yuyucu və quruducuların istifadəsi tövsiyə olunur. Üst örtük yalnız aşındırıcı təmizlikdən sonra aparılmalıdır. SikaPaver®-193 xidmət müddəti işlənmiş səthin məruz qaldığı aşınma dərəcəsindən asılıdır.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslanan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat

Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12